



*Dedicated to the 99th Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev*

VI INTERNATIONAL SCIENTIFIC CONFERENCE OF

# YOUNG RESEARCHERS

# Proceedings

BEU BAKU ENGINEERING UNIVERSITY

Academy of the State Customs Committee Republic of Azerbaijan

29-30, April 2022, Baku, Azerbaijan

www.yric.az

# MEMARLIQ/İNŞAAT BÖLMƏSİ

## AZƏRBAYCAN RƏSSAMLARININ YARADICILIĞINDA ZƏFƏR MÖVZUSUNA BAXIŞ

**EMİL RAUL OĞLU AĞAYEV**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci "İncəsənət və fiziki tərbiyə" fənn birləşmə komissiyasının müəllimi
*Emilaghayev93@mail.ru*
BAKI,AZƏRBAYCAN

**XÜLASƏ**

Ölkələrin əsas ərazilərinin müdafiəsini diqqət mərkəzində saxlayırlar. Azərbaycan tarixinə nəzər yetirsək, müharibələr, torpaqlarımızın düşmən tərəfindən işğalı, ərazi bütövlüyümüz uğrunda mübarizələr, bizim xalqın başına gətirilən faciələri xüsusilə vurğulamalıyıq. 90-cı illərdə ermənistanın Qarabağı işğal etməsi, 30 il ərzində ikili siyasət, memarlıq, dini abidələrimizin təhqir edilməsi dünya ölkələrini narahat etmirdi. 2020-ci il 27 sentyabr tarixində ermənistanın növbəti dəfə atəşkəsi pozması nəticəsində ordumuz işğal altında qalan torpaqlarımızı geri qaytarmaq üçün mübarizəyə qalxdı. 44 gün ərzində kənd, qəsəbə, şəhərləri azad edən ordumuz, 2020-ci il 8 noyabr tarixində mədəniyyət paytaxtımız Şuşada zəfər bayrağını ucaltdı. Rəssamlarımızın yaradıcılığında Qarabağ mövzusuna həsr etdiyi əsərlər yeni süjet xətti ilə seçilirdi. Bu məqalədə Azad Əliyev "Zəfər hilalı", Xanlar Əhmədov "Məğlubedilməz", Natiq Fərəcullazadə "Xarıbülbül", "Novruz", Mirzə Həbib Quliyev "Zəfər", İrina Eldarova "Zəfər günü", Səyyar Əliyev "Şuşa həsrəti" əsərləri sənətşünaslıq kontekstində təhlil edilmişdir.

**AÇAR SÖZLƏR: Azərbaycan, Qarabağ, Şuşa, Zəfər, Təsviri sənət**

### GİRİŞ

Ölkələrin müstəqilliyinin möhkəmlənməsinin əsas amillərindən biri ərazilərinin müdafiəsidir. Azərbaycan tarixinə nəzər yetirsək, müharibələr, torpaqlarımızın düşmən tərəfindən işğalı, ərazi bütövlüyümüz uğrunda mübarizələr, bizim xalqın başına gətirilən faciələr mühüm yer tutur. 90-cı illərdə ermənistanın Qarabağı işğal etməsi, 30 il ərzində ikili siyasət, memarlıq, dini abidələrimizin təhqir edilməsi dünya ölkələrini narahat etmirdi. 2020-ci il 27 sentyabr tarixində ermənistanın növbəti dəfə atəşkəsi pozması nəticəsində ordumuz işğal altında qalan torpaqlarımızı geri qaytarmaq üçün mübarizəyə qalxdı. 44 gün ərzində kənd, qəsəbə, şəhərləri azad edən ordumuz, 2020-ci il 8 noyabr tarixində mədəniyyət paytaxtımız Şuşada zəfər bayrağını ucaltdı. Qazanılan Zəfər müasir tariximizdə əhəmiyyətli mövqe tutur. İncəsənətin cəmiyyət, tarixdə baş verən proseslərlə sıx bağlı olduğunu nəzərə alsaq, rəssamlarımızın yaradıcılığında Qarabağ mövzusuna həsr etdiyi əsərlər yeni süjet xətti ilə seçilirdi.

### TƏDQİQAT METODU

Rəng, plastika, dekorativ-tətbiqi sənət nümunələri qazanılan Zəfərin təsir gücünü tamaşaçının gözü qarşısında bir daha canlandırır. Azərbaycan heykəltəraşlığında bu mövzunun işlənilməsi sənətkarlarımız tərəfində yeni obraz həllinə əsaslanırdı. Azad Əliyevin müəllifi olduğu "Zəfər hilalı" (ill 1) abidə kompleksi bürünc materialının fakturasının üstünlüyü ilə seçilir. Əsas obraz kimi qadını seçən heykəltəraş, arxa fonu aypara simvoluyla tamamlamışdı. Ana və vətən anlayışlarını bir kompozisiyada birləşdirmişdir. Ayparanın üzərində vətəni müdafiə edən igidlərimizin Zəfər mübarizəsindəki yolu ardıcıllığı ilə seçilir. Kompozisiyada ana obrazına verilən ideya maraqlıdır, onun duası ilə igidlərimizin qələbə qazanması aypara üzərində dinamika yaradır.



**Ill 1. Azad Əliyev "Zəfər hilalı" abidə kompleksi (2021) (bürünc, 40x57 sm)**

"Məğlubedilməz"(ill 2) əsəri vətənpərvərlik, mübarizlik ideyası ilə yüklənmişdir. Xanlar Əhmədov müharibədə yaralansada öz mübarizəsini davam etdirən məğlubedilməz obrazı təqdim etmişdi. Döyüş geyimi, əllərinin kobud fakturası, ümumiyyətlə əsərin ümumi həlli müharibə səhnəsini gözümüzün qarşısında canlandırır.




**İll 2. Xanlar Əhmədov "Məğlubedilməz" (polyester, 30x25x15 sm)**

Azərbaycan rəngkarlığında Zəfər mövzusu geniş diapazona malikdir. Natiq Fərəcullazadə "Xarıbülbül" (ill 3) və "Novruz" (ill 4) əsərlərində Qarabağda bayram abu-havası yaratmışdı. Milli naxışlar, geyimlərin

işlənməsi, zərgərlik nümunələrinin təsviri xüsusi obrazlılığı ilə seçilir. Çiçək açan xarıbülbül isə azad torpaqlarımıza yeni nəfəs gəldiyinə işarədir.



**İll 3. Natiq Fərəcullazadə "Xarıbülbül" (2020) (kətan, yağlı boya)**



**İll 4. Natiq Fərəcullzadə "Novruz" (2020) (kətan, yağlı boya)**

Mirzə Həbib Quliyev "Zəfər" (ill 5) əsərində dənizdə, quruda vətəni müdafiə edən əsgər obrazını mərkəzi hissədə canlandırmışdı. Kətan üzərində, yağlı boya texnikası ilə İrina Eldarova "Zəfər günü" (ill 6) kompozisiyasında insanların 30 il ərzində həsrətlə gözlədikləri xəbərə sevincləri rənglərə qarışmışdı. Kədər, sevinc qürur hissi əsərin ideyasıdır.



**Ill 5. Mirzə Həbib Quliyev "Zəfər" (2021) (kətan, yağlı boya, 70x103 sm)**



**Ill 6. İrina Eldarova "Zəfər günü" (2021) (kətan, yağlı boya, 120x120 sm)**

8 noyabr Şuşada qazanılan tarixi uğur rəssamlarımızın yaradıcılığında yeni mərhələ təşkil edir. Səyyar Əliyevin əsərində Şuşa həsrəti artıq bitmişdi. Nar meyvələrin, Şuşa şəhərlərimizin zirvə mənasında təqdim edilmişdi. Qırmızı rəngin əhatə etdiyi əsərdə Şuşanın memarlıq abidələri əsas diqqət mərkəzindədir. (ill 7)



**Ill 7. Səyyar Əliyev "Şuşa həsrəti" (2021) (kətan, yağlı boya, 100x70 sm)**

**NƏTİCƏ**

"Azərbaycan rəssamlarının yaradıcılığında Zəfər mövzusuna baxış" elmi məqaləsinin əsas nəticələri aşağıdakılardır:

-Rəssamların yaradıcılığında əsərlər sənətşünaslıq kontekstində təhlil edilmişdir.

-Heykəltəraşlıq əsərlərində plastikanın həcmi obraza tabe edilmişdi

-Rəngkarlıq əsərlərində Qarabağda qazanılan Zəfər rənglərin əhatəsində təqdim edilmişdi

-Zəfər mövzusunda işlənilən əsərlər müasir Azərbaycan təsviri sənətində yeni mərhələ təşkil edir.

**ƏDƏBİYYAT SİYAHISI**

1.https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si

2. https://az.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa